# Müstəqil Azərbaycanın gələcəyinə səs verək

Respublikamız mühüm siyasi hadisələr ərəfəsindədir. Bu il sentyabrın 1-də Azərbaycan Milli Məclisinə növbədənkənar seçkilər keçiriləcək. Bununla bağlı "Altıncı çağırış Azərbaycan Respublikası Milli Məclisinin buraxılması və Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin təyin edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 28 iyun 2024-cü il tarixli Sərancamı verilmişdir. Həmçinin, "Azərbaycan Respublikasının Milli Məclisinə növbədənkənar seçkilərin keçirilməsi ilə əlaqədar Qəbələ rayonu ərazisində seçkiqabağı təbliğat və təşviqatın aparılması məqsədilə açıq və qapalı yerlərin ayrılması haqqında" Qəbələ Rayon İcra Hakimiyyəti başçısının 11 iyul 2024-cü il tarixli sərancamı verilmişdir. Hazırda ölkə üzrə bütün seçki dairələrində seçkiyə hazırlıq işləri davam edir, deputatlığa namizədlər özlərinin təşviqatı ilə məşğuldurlar. Ölkəmizin bütün ərazisində namizədlər üçün bərabər imkanlar yaradılıb.

Tarixi və əzəli torpaqlarımız düşmən tapdağından azad edildikdən sonra ilk dəfədir ki, müstəqil Azərbaycanımızın tam sərhədləri daxilində Parlament seçkiləri keçirilir. Bu baxımdan azadlığa qovuşmuş ərazilərdə keçirilən seçkilər də respublikamızın demokratik inkişafı ilə yanaşı, xalqımızın Vətən müharibəsindəki qələbəsini və Qarabağda erməni separatizminə son qoyulduğunu bütün dünyaya bəyan edir. Bu seçkilərin timsalında dünya Azərbaycanı daha yaxından tanıyır və ermənilərin Qarabağla bağlı iddialarının saxta olduğunu öyrənir.




Beləliklə, bu seçki bir daha Azərbaycanın demokratik inkişafının təcəssümünə çevriləcək və tarixə ərazi bütövlüyümüzün və suverenliyimizin növbəti təsbiti kimi həkk olunacaq.

Respublikada son 31 ildə keçirilən azad, ədalətli, şəffaf seçkilər ölkəmizin demokratik dəyərlərə sadiqliyini bir daha dünyaya nümayiş etdirib.

Azərbaycanda Seçki Məcəlləsi 2003-cü ilin may ayında təsdiq edilib. Ötən 21 il müddətində Seçki Məcəlləsinə 26 dəfə əsaslı dəyişikliklər olunub ki, bütün bunlar da seçkilərin azad, ədalətli keçirilməsini, vətəndaşların seçki hüququnun etibarlı təminatını şərtləndirib.

Seçki Məcəlləsi şəffaf və demokratik seçkilərin keçirilməsi üçün daha möhkəm hüquqi bazis yaradıb.

Bütün bu reallıqların səbəbi həm də odur ki, Azərbaycanın Seçki Məcəlləsi aparıcı beynəlxalq təşkilatlarla əməkdaşlıq şəraitində hazırlanıb və hər il getdikcə daha da təkmilləşdirilib. Bu prosesdə ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosu, Avropa Şurasının Venesiya Komissiyası və Beynəlxalq Seçki Sistemləri üzrə Fondla sıx əməkdaşlıq qurulub və onların təklifləri, tövsiyələri nəzərə alınıb.

Sentyabrın 1-də ölkəmizin müstəqillik dövründə sayca 7-ci parlament seçkiləri keçiriləcək. Bu, həm də ərazi bütövlüyümüzün, suverenliyimizin tam təminatından sonra işğaldan azad edilmiş ərazilərimizdə təşkil edilən ilk parlament seçkiləridir. Milli Məclisə seçkilərlə əlaqədar 46 ölkə və 29 qurumdan, ümumilikdə 267 beynəlxalq müşahidəçi qeydə alınıb. Seçki kampaniyalarının əsas mərhələlərindən biri namizədlərin seçkiqabağı təşviqatının həyata keçirilməsidir. Artıq prosesə start verilib. Avqustun 9-da başlayan kampaniya avqustun 31-i saat 08:00-da dayandırılacaq.

Hazırda Qəbələ rayonunda da Parlament seçkilərinə hazırlıq işləri uğurla davam etdirilir. 116 saylı Qəbələ Dairə Seçki Komissiyası 54 066 seçicini 59 seçki məntəqəsində birləşdirir. Bu ilki seçkilərdə 10 namizəd Milli Məclisdəki mandat uğrunda mübarizə aparacaq. Seçki prosesini ATƏT-in nümayəndələri, 650 bitərəf və müxtəlif partiya təmsilçiləri müşahidə edəcək. DSK-nın 9 seçki məntəqəsində seçkilərin gedişini izləmək üçün müşahidə kameraları quraşdırılmışdır. Qeyd edək ki, 01 sentyabrda 18 yaşı tamam olanların sayı 10 nəfərdir. İlk dəfə səs verənlər 550, yaşı 80-dən yuxarı olanların sayı isə 788 nəfərdir.

Həmçinin, Parlament seçkilərində Qəbələ rayonunun 20 056 seçicisi 117 saylı Oğuz-Qəbələ Dairə Seçki Komissiyasının 20 məntəqəsində 8 namizədə səs verəcək. Bu seçki məntəqələrinin 2 də müşahidə kameraları quraşdırılmışdır. DSK-da İlk dəfə səs verənlər 221, yaşı 80-dən yuxarı olanların sayı isə 275 nəfərdir.

Bu gün hər bir azərbaycan vətəndaşı onun üçün yaradılmış konstitusion hüquqlarından istifadə edərək sentyabrın 1 də seçki məntəqələrinə getməli və ölkəmizin gələcəyi naminə öz namizədinə səs verməlidir.

**Azad MƏMMƏDOV,**
**"Qəbələ"**

# Qardaş dəstəyi

Türk dünyası qədim ulu keçmişə malik tarixi dövrü özündə yaşadır. Türk dünyası dedikdə ilk olaraq düşünülən şücaət, mərhəmət, kişilik, mərd-ərənlər, böyük sarsılmaz ordu, sonsuz bir cahan, yenilməz bir dünyadır. Elə bir dünya ki, mərdlik, vətənpərvərlik, igidlik, elinə-obasına hədsiz sevgi, bütün kainatın canlılarına qarşı səxavət və məhəbbətlə dolu, qurmaq, yaratmaq eşqilə dolu. Bu gün Türk dünyası böyük bir ailədir; mehriban, səmimi, düşməninə qarşı birlikdə mübarizə aparan, eyni amala, fikrə sahib. Azərbaycan müstəqillik əldə etdikdən sonra keçmiş sovet ittifaqına daxil olan bütün türk soylu dövlətlərlə hərtərəfli şəkildə əlaqələrini möhkəmləndirdi. Ümumiyyətlə, Azərbaycan həmişə türk dünyasının sıx birləşməsinə öz töhfəsini verib və bundan sonra da türk dünyasının birliyi amallarına sadiq qalacaqdır. Türk Dövlətləri Təşkilatına üzv ölkələrlə əlaqələrin bütün sahələrdə möhkəmləndirilməsi Azərbaycanın xarici siyasətinin əsas prioritetlərindən biridir.



Bununla bağlı Azərbaycan - Özbəkistan ikitərəfli münasibətləri nümunə göstərmək yetərlidir. Prezident İlham Əliyev bu istiqamətdə daha geniş fəaliyyətini aydın şəkildə görürük. Bütün bunlar da Azərbaycanın inkişafına dəstək və türk dünyasına töhfədir. Xatırladaq ki, Prezident İlham Əliyev İkinci Qarabağ Müharibəsində qələbədən sonra son iki ildə Özbəkistana beş dəfə səfər edib: bir sıra dövlət səfəri, Şanxay Əməkdaşlıq Təşkilatına üzv ölkələrin Zirvə Görüşü və Türk Dövlətləri Təşkilatının IX Zirvə Görüşü və son 2024-cü il 23 avqust görüşü. Səfərlər zamanı aparılan müzakirələr onu göstərir ki, Azərbaycan - Özbəkistan əlaqələri daha da yüksək səviyyəyə qalxmışdır. Türk xalqlarının bu istiqamətdə birgə fəaliyyəti ümumi olaraq Türk Dünyasına geniş, işıqlı yollar açacaqdır. "Güc birlikdədir" ifadəsi əsas amalımız olmalı, daha da irəliyə getmək və gözəl nəticələr əldə etmək üçün sıx birləşməliyik. Türk dünyası birbirimizin milli maraqlarını nəzərə alaraq bundan sonra da qarşılıqlı dəstək və həmrəylik göstərməlidir. Siyasi, iqtisadi, ticari, mədəni, nəqliyyat, energetika, rəqəmsal transformasiya, kənd təsərrüfatı, turizm sahələri ilə yanaşı, təhlükəsizlik, müdafiə, müdafiə sənayesi kimi sahələrdə də əməkdaşlığımızı fəallaşdırmalıyıq. Lakonik şəkildə desək bütün türk dövlətləri qardaş və sirdaş olaraq dünyaya birliyin, həmrəyliyin, vəhdətin nümunəsini nümayiş etdirməlidir. Bütün bunlar güclü inkişafa, o cümlədən sülh və əmin-amanlığa doğru gedən yoldur. Bu xalqları birləşdirən ortaq mədəni irs, din, həyata baxış və ortaq tarix mövcuddur. Bütün bunlar da dövlətlərarası münasibətlərdə həmişə mühüm yer tutub. Azərbaycan - özbək xalqları arasında olan qardaşlığın bariz nümünəsi işğaldan azad edilmiş Füzuli rayonunda Özbəkistan tərəfindən məktəbin inşasıdır. Qeyd edək ki, bir il əvvəl, avqustun 23-də Füzulidə Mirzə Uluqbəy adına 960 şagird üçün nəzərdə tutulan və münasibətlərimizin rəmzi olan, özbək qardaşlarımızın gözəl münasibətlərinin simvoluna çevrilən, həmçinin Şavkat Miromonoviçin Özbəkistanda həyata keçirdiyi standartlara uyğun məktəbin açılışı oldu.

Bir sözlə Özbəkistan ölkəmizin ərazi bütövlüyünün bərpası işində Azərbaycanı hər zaman dəstəkləyib. Ümumiyyətlə biz həmişə - istər işğal, istərsə də İkinci Qarabağ müharibəsi illərində və sonra da özbək xalqının qardaş dəstəyini hiss etmişik. Ən ağır dövrdə belə özbək xalqının qardaşlıq dəstəyini hiss edirik. Bu, bizim üçün çox qiymətlidir, bunlar bizim münasibətlərimizin tarixində unudulmaz hadisələrdir. Bütün bunlar gücümüzə güc verir, istər siyasi, istərsə də iqtisadi sferada. Böyük Türk Dünyası bununla böyük nailiyyətlər əldə edəcəkdir. Qarşılıqlı hörmət, etimad və o cümlədən, strateji tərəfdaşlığın dərinləşdirilməsi və qarşılıqlı fəaliyyətin genişləndirilməsi haqqında siyasi Bəyannamə gələcək fəaliyyətimizin yol xəritəsidir. Bu gün Xəzər, Mərkəzi Asiya, Cənubi Qafqaz regionlarının sülhə və sabitliyə ehtiyacı var. Bu əməkdaşlıqlar da firavan həyata zəmin yaradacaq. Ölkələrimiz arasında münasibətlər daha möhkəm olacaq, aramızda daha çox əməkdaşlıq və qarşılıqlı dəstək olacaq. Bunun əsası liderlərin siyasi iradəsi, eləcə də iqtisadi zəminlərdir.

Türk dünyası təkcə müstəqil türk dövlətlərindən ibarət deyil, onun coğrafi sərhədləri daha genişdir. Ümumiyyətlə, Türk dünyası böyük bir ailədir və bu ailəni qorumaq, əhatəsini genişləndirmək bu günümüzün ən aktual məsələsi olmalıdır.

**İlhamə SEYİDOVA,**
**"Qəbələ"nin ştatdankənar müxbiri.**

# İməcilik aksiyası



15 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin, Şəki Regional Hidrometeorologiya Mərkəzinin, Şahdağ Milli Parkının Qəbələ bölməsinin və Bum meşəbəyliyinin nümayəndələrinin iştirakı ilə Qəbələ rayonunda Ümumrespublika Təmizlik Marafonu çərçivəsində iməcilik aksiyası keçirilmişdir. 45 nəferin iştirakı ilə keçirilən iməcilik aksiyasında Bum qəsəbəsindən Qəmərvan kəndinə gedən avtomobil yolunun sağ və sol kənarlarında 400 kq çəkidə bərk məişət tullantısının təmizlənməsi təmin edilmişdir.

# Təmiz planet hər kəsin arzusu olmalı



Gənclərin İnkişaf və Karyera Mərkəzinin Dağlıq-Şirvan regional nümayəndəliyinin Qəbələ bölməsinin təşkilatçılığı və Qəbələ regional "ASAN xidmət" mərkəzinin tərəfdaşlığı ilə Qəbələdə "Təmiz planetimiz" layihəsi çərçivəsində tədbir keçirilib. Tədbirdə gənclər öncə topladıqları kağızları və plastik tullantıları Qəbələ "ASAN xidmət" mərkəzində yerləşən qəbul məntəqəsinə təhvil vermiş, daha sonra Laza kəndinə gedərək gənclərlə görüşmüşlər. Görüşdə günümüzün vacib məsələsi olan ekoloji problemlər və onların həlli üçün qarşıda duran vəzifələr barədə danışılmışdır. Gənclərlə mövzuya uyğun oyun və tapşırıqlar icra edilmiş və sonda Laza kəndi ərazisində təmizlik aksiyası keçirmişlər.